

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 147 (21.808)

*5 avqust 2017-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Avqustun 4-də Qaxda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açıb.

Prezident İlham Əliyev bildirib ki, bugünkü müşavirə bu bölgəyə xas olan ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına həsr edilib. Tütünçülük, baramaçılıq, fındıqçılıq bu bölgədə əsrlər boyu inkişaf edib. Burada mövcud olan torpaq şəraiti, torpağın münbitliyi, iqlim, coğrafi vəziyyət, xarici bazarlara yaxın olmağımız və qədim İpək Yolu üzərində yerləşməyimiz – bütün bunlar bu sahələrin inkişafına təkan verib.

Daha sonra çıxışlar olub.

Prezident İlham Əliyev respublika müşavirəsində yekun nitqi söyləyib.

Qarşıda duran vəzifələrdən danışarkən dövlət başçısı vurğulayıb ki, dövlət strateji kənd təsərrüfatı sahələrinin inkişafı üçün öz dəstəyini davam etdirəcək.

Sonra Prezident İlham Əliyev Şəki-Zaqatala iqtisadi rayonunda tütünçülüyün, fındıqçılığın və baramaçılığın inkişafını əks etdirən sərgiyə baxıb.




## Nəqliyyat sahəsinin dinamik inkişafı təmin edilib

***Müasir yol-nəqliyyat infrastrukturu dövlətin iqtisadi inkişafının əsas göstəricilərindən biridir. "Yol-iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyatdır", – deyən ümummilli liderimiz Heydər Əliyev bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayıb, nəqliyyat sahəsinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Ulu öndərimizin nəqliyyat sahəsində müəyyənləşdirdiyi strateji xətt muxtar respublikamızda da uğurla davam etdirilir, artan əhali tələbatına uyğun olaraq yol infrastrukturunun inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirilir, yeni yollar salınır, körpülər tikilir, hava və dəmir yolu nəqliyyatının infrastruktur təminatı yaxşılaşdırılır.***



Son illərdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar Naxçıvanda yol-nəqliyyat infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasına səbəb olub. Belə ki, dövlət başçısının "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına əsasən Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 5 mart tarixli Sərəncamına əsasən uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" 2014-cü il 27 avqust tarixli Sərəncamına əsasən uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən müvafiq yol yenidən qurulub. Bundan əlavə, ötən dövr ərzində 88,8 kilometr uzunluğunda Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu istifadəyə verilib.

Muxtar respublikanın qonşu ölkələrlə iqtisadi əlaqələrinin daha da genişləndirilməsində, beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan, 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları yenidən qurulub. Ümumilikdə, 1995-2016-cı illər ərzində muxtar respublikada 3723 kilometr uzunluğunda yeni avtomobil yolları salınıb, 103 körpü tikilib, 64 körpü əsaslı təmir olunub.

Naxçıvanda əhaliyə nümunəvi nəqliyyat xidmətinin göstərilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilib. Paytaxt Naxçıvan şəhərində şəhərdaxili marşrutlarda əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yeni avtobuslar alınaraq muxtar respublikaya gətirilib, rayon mərkəzlərinə və bütün kəndlərə iritutumlu və rahat avtobuslarla gediş-gəliş təmin edilib. Ötən dövrdə Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin maddi-texniki bazası möhkəmləndirilib, müasir Avtobus Parkı istifadəyə verilib, Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal kompleksləri inşa olunub.

Ötən illər ərzində Naxçıvan-Bakı marşrutunun fəaliyyəti təmin edilib, qonşu ölkələrlə sərnişindaşıma xidmətinin yaxşılaşdırılması istiqamətində Naxçıvan-Batumi və Naxçıvan-Ərzurum avtobus marşrutları fəaliyyətə başlayıb.

Muxtar respublikada nəqliyyatın mühüm sahələrindən olan hava nəqliyyatının inkişafı istiqamətində də ötən illər ərzində kompleks tədbirlər həyata keçirilib, yeni aerovağzal kompleksi tikilib istifadəyə verilib, Naxçıvan hava limanı beynəlxalq status qazanıb. Naxçıvan Beynəlxalq Hava Limanında yeni inzibati bina inşa olunub, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, təyyarə uçuşlarının təhlükəsizliyinin tam təmin edilməsi məqsədilə Şərq və Qərb terminalları istifadəyə verilib. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artıb, aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatdırılıb. Bundan əlavə, ötən dövr ərzində Şərur və Ordubad şəhərlərində aviakassa binaları istifadəyə verilib. Naxçıvan Beynəlxalq Hava Limanında yüklərin təhlükəsiz daşınması və qəbulu istiqamətində cari ilin ilk yarımilində karqo terminalının yenidən qurulması davam etdirilib.

Muxtar respublikada nəqliyyatın digər sahəsi olan dəmir yolunun inkişafı üzrə də mühüm tədbirlər həyata keçirilib, infrastruktur yenidən qurulub. Belə ki, son dövrdə Naxçıvan, Şərur, Culfa, Şahtaxtı sərnişin vağzalı binalarında, Naxçıvan, Vəlidağ, Nehrəm, Dəstə, Dərəşam, Culfa, Qıvraq, Şahtaxtı stansiyaları idarəetmə mərkəzlərində, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasında və digər inzibati və yardımçı binalarda əsaslı təmir işləri aparılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" dəmir yolu nəqliyyatının inkişafına təkan verib. İnkişaf Proqramına uyğun olaraq mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və Radio-rabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilib, dəmir yolu keçidləri yenidən qurulub, yeni dəmir yolu keçidi salınıb.

Ötən il qonşu ölkələrlə iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət edən Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı fəaliyyətə başlayıb, 3 ədəd yeni sərnişin vaqonu alınaraq muxtar respublikaya gətirilib. Bundan əlavə, Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilməkdədir.

Bu sahədə görülən işlər cari ilin ötən dövrü ərzində də diqqətdə saxlanılıb, Culfa stansiyasında İstismar Vaqon Deposunun, Ordubad dəmir yolu sərnişin vağzalı binasının, Ordubad Yol Sahəsinin inzibati binasının və 4 saylı yol məntəqəsi binasının tikintisi, Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri davam etdirilib.

Son illər iqtisadiyyatın kompleks şəkildə inkişafı, əhalinin həyat səviyyəsinin yüksəldilməsi nəqliyyat sektorunun dinamik inkişafını təmin edib, 1995-ci illə müqayisədə 2016-cı ildə yük daşınması 25,4 dəfə artaraq 16 milyon 83 min tona, sərnişin daşınması isə 4,3 dəfə artaraq 100 milyon 129 min nəfərə çatıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev açaraq məruzə ilə çıxış edib.*

## Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində kollegiya iclası keçirilib

Bildirilib ki, kənd təsərrüfatı sahəsində aparılan iqtisadi islahatlar artıq bir neçə ildir ki, muxtar respublikada əhalinin əksər kənd təsərrüfatı məhsullarına olan tələbatının daxili istehsal hesabına ödənilməsini təmin edib. Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsidir ki, torpaq mülkiyyətçilərinin istifadəsində olan torpaqlardan səmərəli istifadə etməklə məhsul bolluğu yaradılıb, məhsulların keyfiyyəti artıb, rəqabətə davamlılıq yüksəlib, bazarlarda yerli məhsullar üstünlük təşkil edib.



Qeyd olunub ki, muxtar respublikada ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyətə malik olan ailə təsərrüfatların yaradılmasına dövlət dəstəyi davam etdirilir. 1 iyul 2017-ci il tarixə muxtar respublikanın 87 kəndində 201 böyük ailə təsərrüfatı mövcud olub. Həmin təsərrüfatlarda 5997 baş mal-qara, 35000 baş xırdabuynuzlu heyvan, 8712 baş quş, 4700 arı ailəsi, 3061 hektar əkin sahəsi, 47 hektar meyvə bağı, 7,8 hektar üzüm bağı, 32 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı maşın və mexanizmləri vardır. Verilmiş kreditlərdən səmərəli istifadənin nəticəsidir ki, bu təsərrüfatlarda bütün növlər üzrə məhsul istehsalı və məhsuldarlıq göstəriciləri yüksəkdir.

Diqqətə çatdırılıb ki, əkinçilikdə, xüsusilə dənli bitkilərin məhsuldarlığının yüksəldilməsində keyfiyyətli toxum materialından istifadə əsas amillərdəndir. Hazırda muxtar respublikada 5 toxumçuluq və 1 tingçilik təsərrüfatı fəaliyyət göstərir. Ötən il həmin təsərrüfatlarda istehsal edilmiş buğda toxumları üçün onlara 150 min manat subsidiya ödənilib.

Vurğulanıb ki, ərzaq təhlükəsizliyi baxımından əhalinin sağlam qidalanmasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul edilmiş dövlət proqramlarının icrası ilə bağlı ötən dövrdə 629 hektar sahədə meyvə bağı salınıb. Bundan əlavə, dövlət proqramına uyğun olaraq "Araz" Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində aparılmış tədqiqat işləri nəticəsində 372 meyvə sortunun genetik fondu toplanıb.

Nazir bildirib ki, kənd təsərrüfatı işlərinin mütəşəkkil keçirilməsində kənd təsərrüfatı texnikalarının sazlığı mühüm şərtlərdəndir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 227 ədədi 2017-ci ilin yanvar-iyul aylarında olmaqla, cəmi 1978 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq muxtar respublikaya gətirilib. Kənd təsərrüfatının mühüm sahəsi olan heyvandarlıqdan bəhs edən kənd təsərrüfatı naziri bildirib ki, muxtar respublikada damazlıq və süni mayalanma işlərinin yenidən qurulması, onun bazasının möhkəmləndirilməsi mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına və heyvandarlıq məhsullarının intensiv artımına səbəb olub. Ümumilikdə, 2017-ci ilin ilk 6 ayı ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 122 milyon 440 min manat olub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur.

Kənd təsərrüfatı naziri beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında verilmiş tapşırıqların icrası ilə bağlı qarşıda duran vəzifələrdən də danışıb, bu sahədə görüləcək işlər müəyyənləşdirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev yekun vurub.

**Səbuhi HƏSƏNOV**

***Muxtar respublikamızın əlverişli torpaq-iqlim şəraiti, zəngin təbiəti kənd təsərrüfatının ən vacib və gəlirli sahələrindən biri olan arıçılığın inkişafı üçün çox əlverişlidir. 11 iqlim qurşağından əksəriyyətinə sahib olan qədim diyarımızda çoxsaylı müxtəlif bitki növlərinin yayılması da buna geniş imkanlar açır. Bu gün dövlətimizin bu vacib sahənin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsində arıçılıq hazırda kənd təsərrüfatında ən perspektivli sahələrdən birinə çevrilib. Arıçılıqla məşğul olan sahibkarlara göstərilən maliyyə dəstəyi, balın emalı və qablaşdırılması ilə bağlı istehsal sahələrinin yaradılması bu sahə ilə məşğul olan təsərrüfatların sayının artmasına geniş imkanlar açır.***

# Dillər əzbəri olan Naxçıvan balı

İqtisadi və sosial inkişafımızın müasir mərhələsində arıçılığa diqqət və qayğı daha da artırılıb. Bu sahənin inkişafının təmin edilməsi məqsədi ilə ötən ilin noyabr ayından "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunub. Bu mühüm dövlət proqramının əsas məqsədi muxtar respublikada yerli və ənənəvi arı cinslərinin yetişdirilməsi, arı ailələrindən yüksək məhsul götürülməsi üçün köçürülmə ərazilərində zoobaytar qaydalara əməl edilməsi, xəstəliklərə qarşı vaxtında mübarizə aparılması və məhsul istehsalının daha da artırılması ilə əlaqədar tədbirlərin həyata keçirilməsidir.

Son illər ərzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində yaradılmış Sahibkarlığa Kömək Fondu tərəfindən arıçılıqla məşğul olan 102 sahibkarlıq subyektinə 727 min manat həcmində kreditlər verilib. Balın emalı və qablaşdırılması ilə məşğul olan 5 istehsal müəssisəsi yaradılıb. Görülmüş tədbirlər nəticəsində arı ailələrinin sayı 2000-ci ildə 12 min 620-dən 71 minədək artıb. Bu gün Naxçıvanda 4800-dən çox sahibkar arıçılıqla məşğul olur. Ötən il muxtar respublikada 1403 ton bal istehsal edilib.

Muxtar respublikamızın bütün bölgələrində arıçılığın inkişafına xüsusi diqqət yetirilir. Bu baxımdan Culfa rayonunda da məqsədyönlü tədbirlər həyata keçirilir. Hazırda bölgədə 13 min 750 arı ailəsi saxlanılır. Ötən il rayonda 272 ton bal istehsal olunub. Arıçılığın inkişafı məqsədilə 33 sahibkara 92 min manat kredit verilib. Keçirilən "Arıçılıq məhsulları – bal" festivalında Kırna kəndindən gətirilən bal mükafata layiq görülüb.

Rayon ərazisinin çox hissəsi dağlıq sahələrdir. Gal, Şurud, Milax, Ərəfsə, Teyvaz, Ləkətağ, Boyəhməd və digər kəndlərdə bu gün keyfiyyətli bal əldə edilir. Bu günlərdə arıçılıqda mühüm kampaniya olan bal süzümünə də başlanılıb. Mütəxəssislər bu zaman arıların qış azuqəsinin indidən saxlanılmasının vacibliyini də qeyd edirlər. Bildirirlər ki, bu azuqənin kifayət qədər saxlanması arı ailələrinin qışlamadan gümrah çıxmasına, xəstəliklərə qarşı davamlı olmasına zəmin yaradır. Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin əməkdaşları tez-tez yerlərdə olur, arıçılıqla məşğul olan sahibkarları bu istiqamətdə maarifləndirirlər.

Culfa rayonunun Milax kəndində yaşayan təcrübəli arıçı Şaiq Hacıyev arı ailələrinin bir qismini kənddə, bir qismini isə yaylaqda saxlayır. Şaiq bu gün arıçılıqla məşğul olmaq, təsərrüfatı genişləndirmək üçün hər cür şəraitin olduğunu deyir.



Bölgənin ən iri yaşayış məntəqəsi olan Yaycı kəndində də bu sahənin inkişafına əhəmiyyət verilir. Hazırda bu kənddəki təsərrüfatlarda 872 arı ailəsi var. Ötən il bu iri yaşayış məntəqəsində 17,5 ton bal istehsal olunub.

Kənddə arıçılıqla məşğul olan insanlardan biri də 66 yaşlı el ağsaqqalı Əli Məmmədovdur. Hazırda arı ailələrini Yarpaqlı yaylağında saxlayan Əli kişi deyir ki, arıçılıq maraqlı bir sahədir. Sanki möcüzəli bir dünyaya düşürsən. 40 ilə yaxındır ki, bu möcüzəli dünyanın qoynundayam. Balımızın da keyfiyyətinə söz ola bilməz. Bizim ərazilərimizdə arı 100 cürə çiçəkdən şirə yığır. Ona görə də balımız keyfiyyətli olur. Ata-babalarımız deyərdilər ki, arıçılıq müqəddəs sahədir, arıya haram qatmaq olmaz. İldən-ilə arılarımızı artırırıq. Yaxşı da qazanc götürürük. Hər bir arıçı dövlət qayğısını yaxından hiss edir. İstilər düşən kimi arıları mərhələ-mərhələ üzü dağlara – Yarpaqlı yaylağına gətiririk. Bura arıçılıq üçün çox əlverişli ərazidir. Bu ildən yeni cins arı sortları da əldə etmək fikrindəyik. Məqsədimiz bu vacib sahəni daha da genişləndirməkdir. Bir ailənin xoş güzəranı üçün ən sərfəli sahədir.

Dağlar əhatəsində yerləşən Gal və Şurud kəndlərində də arıçılığın inkişafı üçün çox əlverişli münbit şərait var. Buranın təmiz dağ havası, güllü-çiçəkli yerləri, eyni zamanda ata-babadan qalma ənənələrin uğurla davam etdirilməsi öz bəhrəsini verir. Kənddə arıçılıqla məşğul olanlardan biri də Hüseyn Əliquliyevdir. O deyir ki, 50 arı ailəsi bəsləyir. Elə vaxtlar olub ki, 800 kiloqram, hətta 1 tona yaxın bal istehsal edib. Yaxşı məhsulun isə həmişə alıcısı var. Müştərilər gəlib balı elə kəndin özündə, evdən alıb gedirlər.

Bu gün qadınlar da arıçılıqla məşğul olur, bu sahənin inkişafında yaxından iştirak edirlər. Gal kənd sakini Gülayə Əliyeva da onlardan biridir. İşgüzar qadın deyir ki, 1971-ci ildən arıçılıqla məşğul olur: "Ailəmizdə atamla yanaşı, anam da arı saxlayardı. Mən də anamdan öyrənmişəm. Kəndimiz füsunkar bir ərazidə qərar tutub. Dağ havası, bulaq suları, güllü-çiçəkli yerləri var. Arıçılığı inkişaf etdirməklə yaxşı qazanc əldə edirik. 40 arı ailəsinə qulluq göstəririk. Onların sayını daha da artıracağıq".

Babək rayonunda, dağların aşağı ətəklərində füsunkar bir ərazidə qərar tutan Naxışnərgiz kəndində də təcrübəli arıçıların sayı kifayət qədər çoxdur. Naxışnərgiz ilin yaz fəslində daha gözəl olur. Ətraf sahələr gül-çiçəyə bürünür. Belə şəraitdə isə arıçılığı inkişaf etdirib keyfiyyətli bal istehsal etmək mümkündür. 56 yaşlı Bulud Nəcəfovla görüşürük. Güllü-çiçəkli sahələrə düzdüyü arı ailələrinə qulluq edən arıçıya "Bərəkətli olsun", – deyib salam veririk. Yaxınlıqdakı avtomobili göstərib – yəqin ki, sizinkidir, – deyə soruşuram. "Bəli, çəkdiyim zəhmətin müqabilində illik qazancım 10 min manatdan yuxarı olur", – deyir. O, sözlərinə belə davam edir: "30-dan çox arı ailəsi saxlayıram. Arıçılıq ata-baba peşəmizdir. Zəngin təbiətimiz var. Bura arıçılığın inkişafı üçün sərfəli bir yerdir. Burada təmiz bal istehsal edirik. Alıcılarımız da az deyil. Bakıda bizim balı Naxçıvanın "şah balı" adlandırırlar. Ana təbiət, yaradılan şərait, göstərilən dövlət qayğısı və uzun illərdən bəri qazanılan zəngin təcrübə səmərə verir. Bax qarşıda gördüyünüz bu sahədə tərəvəz əkirik. Bir az da yuxarıda taxıl sahələrimiz var".

Azərbaycanın incisi adlandırılan Ordubad rayonu geniş yaylaq sahələrinə, zəngin bitki örtüyünə malikdir. Dağlar qoynunda yerləşən Tivi, Bist, Nürgüt, Ələhi, Xurs, Unus, Biləv, Nəsirvaz və digər kəndlərin sakinləri yaylaq mövsümü ərzində arılarını Göygöl, Saqqarsu, Əyriçay, Rumus, Genyurd, Alçalıq və digər yerlərə çıxarırlar. Arıçılığın inkişaf etdirilməsində və keyfiyyətli bal istehsalında baytarlıq mütəxəssislərinin də rolu az deyil. Rayon Baytarlıq İdarəsinin rəisi Pamir Hüseynov deyir ki, Ordubadın keyfiyyətli balı nəinki Naxçıvan bazarında, hətta muxtar respublikamızdan kənarda da şöhrət qazanıb. Zəngin təbiətimiz, şəfalı otlarımız, güllər-çiçəklər balımızı keyfiyyətli edir. Təmiz balın alıcısı isə hər zaman var. Ötən il rayonda 268 ton keyfiyyətli bal istehsal edilib. Bunun da müqabilində arıçılar xeyli qazanc götürüblər.

Aşağı Əylis rayonun dağlıq ərazidə yerləşən füsunkar kəndlərindən biridir. Kənddə 1380 nəfər sakin yaşayır. Kənddə arıçılıqla məşğul olan yaşlı insanlardan biri də Qurban Babayevdir. O, ata-baba peşəsini davam etdirir, illər uzunu qazandığı təcrübə səmərə verir. Təcrübəli arıçı çəkdiyi zəhmətin müqabilində yaxşı qazanc əldə etdiyini söyləyir. Deyir ki, məni qıvraq saxlayan ana təbiətdir, təbii qidalardır, zəhmətə, torpağa bağlılıqdır: "Mən xoşbəxtliyimi, firavan həyatımı doğma kəndimdə, ata ocağında tapmışam. Bu yerdə yüz il yaşamaq, ömür sürmək belə, azdır".

Bəli, müqəddəs bir sahədir arıçılıq. Arıçılıqla məşğul olan hər bir kəs təmiz, keyfiyyətli bal əldə etmək istəyirsə, gərək ilboyu arılara qulluq göstərə. Qazanılan təcrübə, göstərilən dövlət qayğısı, eləcə də muxtar respublikamızın zəngin təbiəti Naxçıvan balının uzaq-uzaq ellərdə şöhrətini artırır. Şair necə də gözəl deyib:

***Bağ salıb, gül əkməyən,***
***Gülün yerə tökməyən,***
***Arı qəhrin çəkməyən,***
***Balın qədrin nə bilər.***

**Məhəmməd FƏRƏCOV**
***Naxçıvan dövlət televiziyasının baş redaktoru***

---



***Qədim Naxçıvanda üzümçülük dərin tarixi köklərə malikdir. Aparılan arxeoloji qazıntılar zamanı tapılan meyvə, xüsusilə üzüm toxumları, eləcə də çaxır hazırlamaq və saxlamaq üçün işlədilən iri küplər göstərir ki, muxtar respublika ərazisində yaşayan insanlar hələ eradan əvvəl bağçılıq və üzümçülüklə məşğul olublar. Qeyd etmək lazımdır ki, yabanı üzüm indi də regionumuzun ərazisində geniş yayılıb. Hələ çox qədimdən burada üzümdən kişmiş, mövüc, bəkməz və sair məhsullar hazırlayaraq qonşu ölkələrə ticarət məqsədilə aparıblar.***

# Gəlirli sahə olan üzümçülük yeni inkişaf mərhələsini yaşayır

Hazırda muxtar respublika ərazisində 120-dən artıq üzüm sortu yetişdirilir. Onlardan yüzə yaxını yalnız muxtar respublikanın ərazisində yayılıb. Həm qidalılıq əhəmiyyətinə, həm də iqtisadi səmərəsinə görə üzüm əkilməsi vacib sayılan kənd təsərrüfatı bitkilərindən biridir. Ən bəsit hesablamalar göstərir ki, bir hektar üzümlük sahəsi dənli bitkilərdən 3,9, pambıqdan 2,7, tərəvəz bitkilərindən 1,5, bostan bitkilərindən 7,5, meyvə bağlarından isə 2,6 dəfə artıq gəlir gətirir.

Üzümçülük və şərabçılıq aqrar-sənaye sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Yəni üzümçülük kənd təsərrüfatı istehsalının çox xərc tələb edən sahəsi olmasına baxmayaraq, 1 hektar sahədən əldə olunan məhsula görə ən yüksək göstəriciyə malikdir.

Sovet dönəmində ulu öndərimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi sayəsində Azərbaycanda üzümçülük sürətlə inkişaf etmişdi. Görkəmli dövlət xadiminin 1969-cu ildə Azərbaycana rəhbərliyə başladığı zaman üzüm istehsalı 272 min ton olduğu halda, sonrakı dövrlərdə görülmüş tədbirlər nəticəsində bu rəqəm 2 milyon tonu ötmüşdü. Bu da, öz növbəsində, aqrar-sənaye kompleksinin inkişafına və kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdu. Lakin 80-ci illərin ortalarından başlayaraq keçmiş Sovet İttifaqının rəhbərliyi tərəfindən aparılan antialkoqol kampaniyası çərçivəsində Azərbaycanda böyük zəhmət hesabına yaradılmış üzüm bağları məhv edilərək iqtisadiyyata ciddi ziyan vurulmuş, insanlar gəlir mənbələrindən məhrum edilmişdilər. Yalnız ölkəmiz müstəqillik əldə etdikdən sonra üzümçülüyün yenidən inkişafı üçün əlverişli şərait yaradıldı və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməyə başlanıldı. Belə ki, 2002-ci ildə "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Üzümçülüyün inkişafı üzrə tədbirlərin də nəzərdə tutulduğu və icrası başa çatan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" kimi mühüm sənədlərin təsdiq edilməsi üzümçülükdə yeni uğurlara yol açdı.

Muxtar respublikanın torpaq-iqlim şəraiti üzümçülüyün daha da inkişaf etdirilərək istehsalın artırılmasına, əhalinin müxtəlif çeşidli, yüksəkkeyfiyyətli süfrə üzümünə, şərabçılıq və digər emal müəssisələrinin isə xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verir. Bu isə, öz növbəsində, üzüm və şərabçılıq məhsullarının ixracının artırılmasına, idxalın isə azalmasına şərait yaratmaq imkanlarına malikdir.

Muxtar respublikada yeni üzüm bağlarının salınmasına, eləcə də keçmiş ənənələrdən istifadə etməklə üzümçülüyün inkişafında intensiv becərmə üsullarının tətbiqinə başlanılıb, nəticədə, üzüm sahələrinin genişləndirilməsi, istehsalın həcmi və məhsuldarlığın tədricən artımına nail olunub.

Üzüm istehsalı üçün regionun əlverişli torpaq-iqlim şəraiti, üzümün digər bitkiçilik məhsullarına nisbətən yüksək iqtisadi səmərəliliyi, keyfiyyətli süfrə (o cümlədən kişmiş) və texniki üzüm sortlarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsi, həmçinin qonşu və digər ölkələrin bazarlarında yüksəkkeyfiyyətli ekoloji təmiz süfrə üzümünə, şərab və digər üzüm emalı məhsullarına olan yüksək tələbat üzümçülüyün daha da inkişaf etdirilməsini zəruri edir. Məhz buna görə muxtar respublikada bu sahənin inkişaf etdirilməsinə diqqət və maraq getdikcə artmaqdadır.

Üzümçülüyün davamlı olaraq inkişaf etdirilməsi, keyfiyyətli və ucuz başa gələn yerli üzüm sortlarının yetişdirilməsi Naxçıvanda da tingçilik təsərrüfatlarının yaradılmasını şərtləndirir. Yeni üzüm plantasiyalarının salınması böyük həcmdə uzunmüddətli kapital qoyuluşu tələb etməklə bərabər, barvermə dövrünədək (təxminən, 4-5 il ərzində) əkinə xidmət üçün əlavə maliyyə resurslarına ehtiyac yaradır. Odur ki, mövcud və yeni yaradılacaq üzümçülük təsərrüfatlarının uzunmüddətli maliyyə mənbələri ilə təminatı qarşıda duran ən vacib məsələlərdən biridir.

İstehsal olunmuş üzüm məhsullarının vaxtlı-vaxtında tədarükü xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə həmin məhsulların plantasiya-istehlakçı sxemi üzrə reallaşdırılması məsələləri həllivacib olan problemlərdən biridir. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" qeyd olunan problemlərin həllinə, üzümçülük və şərabçılığın kompleks inkişafına yönəldilib. Ölkə başçısı cənab İlham Əliyev 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nı təsdiq edib. Bu proqramın icrası ölkəmizdə, o cümlədən muxtar respublikada üzümçülüyün əvvəlki şöhrətinin özünə qaytarılmasına imkan verəcək və beləliklə, kənd təsərrüfatının geniş miqyasda inkişafına, əhalinin rifah halının daha da yaxşılaşmasına şərait yaradacaqdır.

Dövlət proqramının məqsədi əhalinin təzə və keyfiyyətli süfrə üzümünə olan tələbatının daha dolğun ödənilməsi, şərabçılıq və üzüm emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılmasından ibarətdir. Qeyd olunan məqsədə nail olmaq üçün süfrə və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, yeni üzümlüklərin salınması, tingçilik tə-



sərrüfatlarının yaradılması, mövsümlərarası dövrlərdə əhalinin fasiləsiz olaraq süfrə üzümü ilə təmin edilməsi məqsədilə saxlama kameralarının tikilməsi, üzüm və şərabçılıq məhsulları istehsalı ilə əlaqəli sahələrin inkişafı və digər vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur.

Üzüm muxtar respublikanın bütün rayonlarında talvar və geniş plantasiyalarda əkilib-becərilə və inkişaf etdirilə bilər. Bu bitkinin inkişafına geniş yer verilməsi Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən hazırlanmış rayonlar üzrə əkin sahələrinin atlasında da öz əksini tapıb.

**Yaşar QULİYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

*Təhsil millətin gələcəyidir*

## Naxçıvanda rezidentura təhsili üçün hər cür şərait yaradılıb

***Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, təhsil millətin gələcəyidir. Məhz buna görə də bu gün ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda təhsilin inkişafı diqqət mərkəzində saxlanılır. Gənclərimiz yaradılmış imkanlardan səmərəli istifadə etməyə çalışır, bunun nəticəsində hər il müxtəlif ali məktəblərə qəbul imtahanlarında həm kəmiyyət, həm də keyfiyyət baxımından qazanılan uğurların sayı artır. Son illər gənclərin tibb sahəsinə marağının artması isə muxtar respublikada bu sahə üzrə ali təhsil almaq üçün geniş imkanların yaradılması ilə əlaqədardır. Müsahibimiz Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı, rezidentura üzrə məsul şəxs, dosent Elsevər Əsədovla söhbətimiz də bu mövzuda oldu.***



***– Elsevər müəllim, istərdim ki, ilk olaraq rezidentura təhsili barədə məlumat verəsiniz.***

– Rezidentura təhsili 2009-cu il 19 iyun tarixində qəbul edilmiş Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanunu ilə tibb ixtisasları üzrə baza ali təhsili əsasında həkim-mütəxəssis hazırlığı formalarından biri kimi müəyyən edilib. Digər inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da rezidentura təhsilinin tətbiqinin əsas məqsədi ölkəmizin ali tibb təhsili sisteminin dünya tibb təhsili məkanına inteqrasiyası, tibbi təhsilin keyfiyyətinin ümumavropa tibb təhsili sisteminin prinsiplərinə uyğunlaşdırılması, yüksəkixtisaslı həkim-mütəxəssislərin hazırlanması, habelə ölkəmizdə verilmiş tibb təhsili sənədlərinin beynəlxalq səviyyədə tanınmasıdır. 2010-cu il 18 mart tarixli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə “Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları” təsdiq edilib və bu qaydalarda rezidenturanın təşkili ilə bağlı əsas istiqamətlər – yəni ixtisaslar üzrə müvafiq təhsil proqramları, təhsil alanların hazırlıq səviyyəsinə qoyulan tələblər, rezidenturada təhsil müddəti, baza təhsil müəssisələri, tədris yükü və digərləri müəyyən olunub. Eyni zamanda 2010-cu il 6 sentyabr tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə “Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan həkim ixtisaslarının siyahısı” təsdiq edilib.

Azərbaycanda Səhiyyə Sektorunun İslahatlar Layihəsi çərçivəsində beynəlxalq məsləhətçilərin dünya təhsil sistemində qəbul olunmuş təcrübəyə əsaslanan təkliflərini nəzərə alaraq, Səhiyyə Nazirliyi 2010-cu il 23 iyul tarixində “Rezidenturada həkim-mütəxəssislərin hazırlığının təşkili və tətbiqi haqqında” əmr imzalayıb. Bu əmrə əsasən 2011-ci ildən başlayaraq baza ali tibb təhsili əsasında tutulmasına icazə verilən həkim vəzifələrinin siyahısı, xarici ölkələrin təcrübəsinə əsaslanaraq siyahıda olan 40 ixtisas üzrə rezidentura təhsil müddəti, o cümlədən rezidenturada həkim-mütəxəssislərin hazırlığını aparan elm-təhsil müəssisələri və klinikalarının siyahısı təsdiq edilib.

Rezidenturaya qəbul olmaqdan imtina edən və rezidentura imtahanlarından keçə bilməyən həkimlər isə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, o cümlədən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələrində baza ali tibb təhsili əsasında tutulmasına icazə verilən həkim vəzifələrinə işə təyin oluna bilərlər.

***– Rezidentura təhsili almaq üçün bakalavrlar hansı imtahanlardan keçməlidirlər?***

– Rezidenturaya qəbul olmaq hüququna Azərbaycan Respublikasında baza (əsas) ali tibb təhsili və ya xarici ölkələrdə təhsil almış və ali tibb sahəsində müəyyən edilmiş qaydada ixtisası nostrifikasiya edilmiş şəxslər malikdirlər. Rezidenturaya qəbul namizədlərin müvafiq tədris ilində biliklərinin qiymətləndirilməsi üzrə keçirilən qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müsabiqə yolu ilə həyata keçirilir.

Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul imtahanı mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada iki mərhələdə keçirilir: baza fənləri və ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanları. Rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının nəticələri elan olunduqdan sonra aparılır. İxtisas seçiminə baza və ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanlarında topladıqları ümumi balı ilə yanaşı, ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında ayrılıqda topladıqları balları da mərkəz tərəfindən müəyyən edilən müsabiqə şərtlərinə uyğun gələn namizədlər buraxılırlar. Namizədlər bitirdiyi baza ali tibb təhsili istiqamətinə müvafiq olan ixtisaslardan istəyinə uyğun olanlarını seçə bilərlər. Rezidenturaya qəbul qaydalarına görə imtahanlarda həm yeni məzunlar, həm də əvvəlki illərdə ali tibb təhsilini bitirmiş həkimlər iştirak edə bilərlər.

***– Bu ilin qəbul göstəriciləri barədə nə deyə bilərsiniz? Yeni tədris ilindən etibarən Naxçıvan Dövlət Universiteti ilə yanaşı, Naxçıvanda rezidentura təhsili alacaq tələbələr arasında digər universitetlərin də məzunları varmı?***

– Naxçıvan Dövlət Universitetində rezidentura təhsilinə 2012-ci ildən başlanılıb. Bu günə qədər ali məktəbin rezidentura pilləsinə 72 nəfər qəbul edilib və onlardan 9 nəfəri məzun olub. Bu il isə universitetimizdə 3 ixtisas üzrə 6 rezident yekun attestasiyaya buraxılacaqdır. 2017-2018-ci tədris ilində 13 ixtisas üzrə 22 bakalavr universitetin rezidentura pilləsinə qəbul edilib. Bu rezidentlərin 9 nəfəri həmin ali təhsil müəssisəsinin Tibb fakültəsinin, 13 nəfəri isə Azərbaycan Tibb Universitetinin məzunlarıdır. Eyni zamanda bu tədris ilində fakültəmizin məzunlarından 9 nəfəri Azərbaycan Tibb Universitetində rezidenturaya, 2 nəfər isə əczaçılıq ixtisası üzrə magistraturaya qəbul olunub. Builki qəbul imtahanının nəticələri ilə birlikdə hazırda 23 ixtisas üzrə 56 rezident təhsil alır.

***– Naxçıvanda rezidentura təhsili hansı şəraitdə həyata keçirilir?***

– Muxtar respublikada rezidentura təhsilinin həyata keçirilməsi üçün, demək olar ki, bütün lazımi şərait yaradılıb. Naxçıvanda rezidentura təhsili Naxçıvan Dövlət Universitetinin nəzdində həyata keçirilir. Rezidentura üzrə kliniki bazalar universitetin Kliniki Xəstəxanası və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki müvafiq xəstəxanalardır. Rezidentlər üçün ixtisasına uyğun olaraq kuratorlar təyin edilir. Rezidenturada təhsil alanlar nəzəri təlim, həkim hazırlığı, ixtisas və ixtisaslaşma fənlərinin mühazirə, məşğələ, seminar, məsləhət, kuratorun rəhbərliyi və nəzarəti altında müalicə-profilaktik işlərin aparılması, sərbəst stajorluq və sairə formada öyrənilməsi ilə təmin olunur. Xəstəxanalarda hər bir rezidentin hazırlığı onun fərdi iş planına müvafiq həyata keçirilir. Bu planda tədris yükünün həcmi, təsviri, müddəti və növü, habelə müalicə-profilaktik işlərin həcmi müəyyən edilir. Kuratorlar rezidentlərə gündəlik rəhbərliyi həyata keçirməklə onların nəzəri biliklərə və peşə vərdişlərinə yiyələnməsini, fərdi iş planını yerinə yetirməsini təmin edir. Onlar hər növbəti həftə üçün tapşırıq və tövsiyələrini rezidentin gündəliyində qeyd edir və bunun yerinə yetirilməsinə nəzarət etməklə, nəticəsini gündəliyə yazırlar. Rezidenturada hazırlıq keçən şəxslərlə klinik baza tərəfindən hər təhsil ili müddətində əmək müqaviləsi bağlanır və rezidenturada təhsil dövrü həkimin ümumi və ixtisas üzrə əmək stajına daxil edilir, ona dövlət büdcəsinin vəsaiti hesabına ümumi həkim stajına və ixtisas dərəcəsinə uyğun olaraq əməkhaqqı ödənilir.

Muxtar respublikada rezidentlər üçün yaradılmış əlverişli şərait hesabına rezidentlərdən bəziləri əlavə olaraq həkim kimi işlə təmin olunublar. Onlardan bir qismi isə vaxtaşırı xaricə, xüsusilə qardaş Türkiyə Respublikasının müxtəlif xəstəxanalarına ixtisasartırma üçün rotasiya olunurlar.

*– Müsahibə üçün çox sağ olun.*

**Fatma BABAYEVA**

***Kompüter gənclərin bilik və bacarıqlarını inkişaf etdirməsində, məlumatların daha operativ əldə olunmasında vacib amillərdən biridir. Bu vasitə ilə uşaq, yeniyetmə və gənclər yaradıcı bacarıqlara yiyələnə, müxtəlif mövzularda araşdırma apara, kitablar, məqalələr oxuya, biliklərini artıra bilərlər. Bir sözlə, kompüter və yeni texnologiyalardan düzgün istifadə uşaq və gənclərin müxtəlif biliklərə yiyələnməsində, dünyagörüşlərinin inkişafında faydalıdır. Bəs Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi uşaq və gənclərin kompüterin faydalarından düzgün yararlanmaları üçün hansı işləri görür? Elə bu sualla mərkəzin direktoru Vüqar Rəsulova müraciət etdik.***

## İnformasiya texnologiyalarının tədrisi gənc nəslin hərtərəfli hazırlığında əhəmiyyətli rol oynayır



Müsahibimiz bildirdi ki, hazırda cəmiyyətin və onun bütün sahələrinin inkişafı yeni texnologiyaların intellektual imkanlarından və informasiya resurslarından geniş istifadə olunması ilə əlaqədardır. Elə mərkəzdə informatika elminin tədrisinin əsas məqsədi və vəzifəsi də insanları kompüterlərin müasir vəziyyəti ilə, eləcə də ən son informasiya-kommunikasiya texnologiyalarının imkanları, tətbiqi dairələri ilə tanış etmək, onlara həmin texnologiyalardan səmərəli istifadə sahəsində vərdişlər aşılamaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 9 iyul tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin yaradılmasında məqsəd də elə bu yöndədir. Hazırda Şərur və Culfa şəhərlərində mərkəzin filialları fəaliyyət göstərir. Ötən dövrdə istər mərkəzin, istərsə də filialların maddi-texniki bazası möhkəmləndirilib, müasir avadanlıqlarla təchiz olunub. Görülən işlər mərkəzdə təhsil alan tələbələrin bu sahədə dərin biliklərə yiyələnmələrində mühüm rol oynayır.

Mərkəzdə olarkən direktor müavini Nəriman Sadıxovla da həmsöhbət olduq. O bildirdi ki, burada kompüter kursları ilə yanaşı, xarici dil kursları, həmçinin dövlət qulluğuna kadr hazırlığı üçün seminarlar da keçirilir. Mərkəzdə elektron lövhə vasitəsilə dövlət qulluğunda çalışan gənclər üçün peşəkar kadrlar tərəfindən açıq dərslər təşkil olunur. Bu da həmin gənclərin öz peşələri üzrə ixtisaslaşaraq daha böyük nailiyyətlər əldə etmələrinə imkan yaradır.

Nəriman Sadıxov onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamına əsasən muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr mərkəzdə praktik işlərlə təmin olunur, istehsalat təcrübələri keçirlər.

Mərkəzin ən böyük nailiyyəti onun kadrlarıdır. Böyük iş təcrübəsinə malik olan ixtisaslı müəllimlər mərkəzə müraciət edən tələbələrin yüksək səviyyədə təhsil almaları üçün səylə çalışırlar. Peşəkar müəllimlər tərəfindən tədris olunan dərslər, tələbələrin informasiya texnologiyaları haqda biliklərə yiyələnmələrinə imkan yaradır. Mərkəzin təcrübəli müəllimlərindən Zeynəb Mazanova deyir ki, hazırda tədris mərkəzində 151 tələbənin iştirakı ilə 56 qrup fəaliyyətdədir. Burada kompüter texnologiyası üzrə tədris olunan ofis proqramları – Microsoft windows, word, excel, powerpoint, kompüter qrafikası proqramları – Corel draw, photoshop, web, dizayn proqramları – HTML, CSS, javascript, animasiya proqramları – AutoCAD, 3D max, archicad və digərləri daxildir.

Zeynəb Mazanova onu da qeyd etdi ki, tədrisin sonunda tələbələrdən yazılı və şifahi imtahanlar götürülür. Birinci mərhələ elektron test variantlı, ikinci mərhələ isə şifahi üsulla aparılır. İmtahanlardan müvəffəqiyyət qazanan tələbələrə dövlət qeydiyyatından keçmiş şəhadətnamə verilir.

Burada olarkən sinif otaqlarına da baş çəkdik, tələbələrlə həmsöhbət olduq. Naxçıvan Dövlət Universitetinin II kurs tələbəsi Aysun İsmayılova dedi ki, XXI əsr texnologiya əsridir və bu dövrdə texnoloji yeniliklərdən uzaq durmaq mümkün deyil. Bu gün hər bir gənc çalışmalıdır ki, öz potensialını dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirsin. Bunun üçün də kompüter vasitəsilə araşdırmalar aparmalı, elm və biliklərə yiyələnməli, müasir texnologiya vasitələrinin sirlərini öyrənməyə səy göstərməli, əldə etdiyi biliklərdən və gənclər üçün yaradılan bu imkanlardan dövlətimizin inkişafı naminə istifadə etməlidir.

Digər müsahibimiz III kurs tələbəsi Ramin Yusufov bildirdi ki, müasir dövrdə heç bir sahəni kompüter texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Çünki bu texnologiya vasitəsilə vaxt itirmədən, daha dolğun və daha çox mənbədən istifadə etməklə məlumatlar almaq mümkündür. Eyni zamanda kompüter vasitəsilə adi mətn yazmaqdan tutmuş ən çətin əməliyyatlaradək hər bir işi daha tez görmək mümkündür. Bu isə vaxta qənaət etmək baxımından çox əhəmiyyətlidir. Buna görə də informasiya texnologiyalarına daha dərindən yiyələnmək lazımdır ki, bu bacarıq və vərdişlərdən gələcəkdə səmərəli istifadə edək.

İnformasiya-kommunikasiya texnologiyaları ölkəmizdə, eləcə də muxtar respublikamızda prioritet sahələrdən biridir. Son illərdə muxtar respublikamızda bu sahənin inkişafı ilə bağlı mühüm addımlar atılıb, müxtəlif layihələr həyata keçirilib. İnformasiya texnologiyalarının tədrisi ilə bağlı görülmüş işlər isə gənc nəslin bu sahədə bilik və bacarıqlarının təkmilləşməsində onlara qlobal dünyanın yeniliklərindən lazımınca yararlanmağa imkan verir. Buna görə də gənclərimiz bu texnologiyanın nailiyyətlərindən düzgün istifadə etməli, qazandıqları bilik və təcrübə ilə ölkəmizin ümumi inkişafına öz töhfələrini verməlidirlər.

**Gülcamal TAHİROVA**

## Şagirdlərin əl işlərindən ibarət sərgi keçirilib

*Sədərək rayonunun mərkəzi Heydərabad qəsəbə tam orta məktəbində şagirdlərin yay tətilinin səmərəli təşkili məqsədilə sərgi təşkil olunub.*



Məktəblilərin əl işlərindən ibarət “İstedadlar sorağında” adlı sərgi rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq Yaradıcılıq Mərkəzinin birgə təşkilatçılığı ilə həyata keçirilib. Sərgini keçirməkdə məqsəd istedadlı uşaqların aşkara çıxarılması, onların öz bacarıqlarını inkişaf etdirmələri və mövcud şəraitdən maksimum yararlanmalarına köməklik göstərməkdən ibarət olub.

Sərgilənən əl işlərində məktəblilər öz istedad və bacarıqlarını nümayiş etdiriblər.

**Ceyhun MƏMMƏDOV**

***İşıq və qaranlıq! Hər ikisi ana təbiətin möcüzəsi, canlı aləmin yaranışı, hər ikisi həyatın bir fəlsəfəsidir. Onlar olmasa, həyat da olmaz. Ancaq insan oğlu yaranışından işığı, onu yaradan alovu seçib, ona tapınıb. Qaranlıqdan, zülmətdən işığa can atıb. Ulularımızın “İşıq qarşısında qaranlıq durmaz”, “Hər qaranlıq gecənin bir işıqlı sabahı var”, “Gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır” kimi deyimləri ilə yanaşı, nağıl qəhrəmanlarımızdan Məlikməmmədin Ağ qoçun üstündə, Simurq quşunun qanadında qaranlıq dünyadan işıqlı dünyaya çıxması, Cırtdanın işıq gələn tərəfə üz tutması və sair folklor nümunələrimiz insan oğlunun aydın sabahlara inamını göstərir.***

# Naxçıvanın axşamları



Bəli, işıq yaşamaq, qurmaq, yaratmaq, ümid, həyat deməkdir. Qaranlıqdan aydınlığa gedən yolun yolçusu isə mübariz insanlardır. Çünki insanlar qaranlıqları yox etmək, yaşamaq üçün daim mübarizə aparıblar. Həmişə kədəri, çətinliyi qaranlıq gecəyə bənzədən bəşər övladı qurub-yaratmağı, xoşbəxtliyi, firavanlığı işıqlı sabaha bənzədib.

İnsanlar işdən sonra istirahət etməyə, dincəlməyə, axşam gəzintisinə çıxmağa həyat eşqi, həyat amalı kimi baxıb, sevincini bölüşmək, xəyallara dalmaq, arzuların qanadında uçmaq üçün istirahət ocaqları – parklar, xiyabanlar salıb, ətrafına güllər, çiçəklər əkiblər. Uşaqların mənalı istirahətlərini təmin etmək, onların zövqünü oxşamaq üçün əyləncə mərkəzləri yaradan, yurdumuzu, yuvamızı ilham mənbəyinə çevirən insanlar bu yerlərə sanki nur paylayıblar. Könlümüzü oxşayan belə axşamlarda yorğun insanlar, əyləncə yarışına çıxan uşaqlar, bir-birinə xatirələrini danışan qocalar, ahıllar daha xoşbəxt görünürlər.

Bu gün qədim diyarımızın axşamları sirli-sehrli, möcüzəli bir aləmdir. Ona görə də istirahət günlərində, axşam çağlarında şəhərimizin görməli yerlərini addım-addım, qarış-qarış gəzməkdən zövq alıram. Hər tərəfdə bir gözəllik ruhumu təzələyir. Bu gözəllik həzin bir nəğmə kimi adamı özünə məftun edir.

Yaşıllığa, çiçək ətrinə qərq olan parklarda, xiyabanlarda gördüklərimiz insana nəinki fiziki güc verir, həm də onun ağlına, şüuruna, zehninə təsir edir, yaşamaq hissini, yaradıcılıq şövqünü, həyata və ətrafındakılara sevgisini, məhəbbətini artırır. Əbəs yerə deyil ki, ata-babalarımız yaşıllıq və gül-çiçəklə əhatə olunan yerlərdəki istirahəti ən gözəl müalicə vasitəsi, ən böyük loğman adlandırıblar.





Estetik zövq, mənəvi rahatlıq, dinclik baxımından Naxçıvan şəhərindəki Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkı axşamlar insan selinə bürünür. Sərin bahar axşamlarında, yay günlərində həmişə izdihamlı olan bu yerin hovuzu, fəvvarəsi min bir rəngə çalır, buranın ecazkar mənzərəsi hər kəsi valeh edir. Uşaqların əylənməsi, bir-biri ilə yarışması parkda qaynar bir mühit yaradır. Dünyamızın sevinci olan uşaqların sevinməsi insanları öz sehrində saxlayan bu istirahət yerinin dəyərini bir qədər də artırır. Ruhumuzun qidası olan musiqinin çağladığı bu məkan şeir, sənət guşəsini xatırladır. Qəlbimdən keçənlər istər-istəməz misralara çevrilir...

*Hər bir parkı, xiyabanı,*
*İstirahət guşəsi...*
*Hovuzlar, fəvvarələr,*
*Bir sənət nümunəsi,*
*Qaynar həyat çeşməsidir.*
*Görən deyər nə gözəldir,*
*Naxçıvanın axşamları.*





“Əyləncə adası”, “Əcəmi seyrəngahı” və digər parklar da insanları axşamüstü öz ağuşuna səsləyir. Bu ünvanlarda gecə lampalarından süzülən işıq şüaları ürəklərə bir rahatlıq çiləyir, qədim diyarımızın hüsn və camalını daha cazibədar edir. Onun sinəsini bəzəyən gözəl və zərif görünüşlü quruculuq töhfələri şair, yazıçı, rəssam, bəstəkar və digər yaradıcı sənət adamlarının qəlbinə hopur, onları bu gözəllikləri əsərlərində tərənnüm etməyə səsləyir.

*Buradakı gözəlliyə,*
*Milyonları şahid çəkər...*
*Şairlərin şeirinə,*
*Rəssamların tablosuna,*
*İnsanların ürəyinə,*
*Vətən adlı nəğmə əkər*
*Naxçıvanın axşamları.*

Şəhərimizin ən gözəl ünvanına çevrilmiş Heydər Əliyev Muzeyinin yerləşdiyi məkana – Baş Meydana yolu düşən oradan ayrılmaq istəmir. Buradakı çiçəklərin, güllərin təravəti, ətri, işıq selinə bürünən meydan insanların qəlbinə sanki bir rahatlıq gətirir. Uşaqlar deyib-gülür, əl-ələ verib oynayır, əylənirlər. Kədəri bir anlıq, sevinci bir dünya olan uşaqların arzu və istəklərinə parkın ecazkar gözəlliyi də qarışaraq sanki xəyali bir aləm yaradır. O aləmdə uşaqlarla yanaşı, ömrünün ahıl çağını yaşayan insanlar da sanki itirdiklərini tapmağa çalışırlar.

Gözüm oturacaqlardan birində əyləşən, ömrünün ixtiyar çağlarını yaşayan iki ahıla sataşır. Onlar bir-birləri ilə şirin söhbət edirlər. Söhbətin nədən getdiyini bilməsəm də, baxışlarından süzülüb gələn xoş əhval-ruhiyyəni, düşüncələri, üzlərindəki təbəssümü çətinlik çəkmədən sezə bilirəm. Gözəlliyə vurğun olan bu insanlar doğma şəhərin əsrarəngiz mənzərələrinə aşiqliyini heyran baxışları ilə əks etdirdikcə hiss olunur ki, burada istirahət etmək onların ürəyincədir. Bu füsunkar axşamın bəxş etdiyi mənəvi gözəllik ərməğanından mən də təsirlənirəm:

*Qocalara, ahıllara,*
*Bağçasından çələng tutar.*
*İnsanların baxışına,*
*Uşaqların gülüşünə,*
*Sevgi dolu, ümid dolu,*
*İnam dolu min rəng qatar*
*Naxçıvanın axşamları.*

İndi hər axşam şəhərimizin sakinləri mənim kimi istirahət vaxtlarının bir neçə saatını istəklərinə uyğun olaraq üz tutduqları parklarda, xiyabanlarda keçirirlər. Çox keçmədən atılıb-düşməkdən yorulan uşaqlar nurlu axşamların onlara bəxş etdiyi xoş ovqatın təsiri ilə şirin yuxuya gedəcəklər. Hər tərəf dünyanı ağuşuna alan gecənin sakitliyinə qərq olacaq. Bu füsunkar gecələr insanları romantik bir aləmdən işıqlı səhərlərə daşıyan sərnişin qatarına bənzəyir. Bu qatarın son dayanacağı – sonuncu stansiyası isə “sübh çağı”dır. Mən də bir xoş axşamın yaratdığı təəssüratları ipə-sapa düzüb sanki son dayanacağıma çatıram:

*Qaranlıqdan aydınlığa,*
*Körpü atar, işıq salar.*
*Körpələrin yuxusuna,*
*Layla qatar, şəkər qatar.*
*Gecələri keşik çəkər,*
*Ta sübhədək oyaq qalar,*
*Naxçıvanın axşamları...*

**Rövşən HÜSEYNOV**
**Naxçıvan Mətbuat Şurasının sədri**



## İlan və əqrəb sancmalarına qarşı zərdab ehtiyatı yaradılıb

Yay aylarında ilan çalması, əqrəb sancması nəticəsində baş verən zəhərlənmələrə təsadüf edilir. Həkiməqədərki tibbi yardımda yanlışlıqlara, hətta kobud səhvlərə yol verilməsi bu sahədə səhiyyə maarifinin gücləndirilməsini labüd edib. Bu məqsədlə Şahbuz Rayon Mərkəzi Xəstəxanasının təşkilatçılığı ilə Daylaqlı kəndində maarifləndirici tədbir keçirilib.

Tədbiri xəstəxananın baş həkimi İlvin Rzayev açaraq bildirib ki, ilançalma, əqrəbsancma hallarının çoxalması havaların isti keçməsi ilə əlaqədardır. Bu il ilk hadisə iyunun 3-də baş verib, yay mövsümü başlanandan 4 ilançalma, 3 əqrəbsancma hadisəsi qeydə alınıb ki, onlardan da 5-i Daylaqlı kəndinin payına düşür. Zərərçəkənlər lazımi tibbi xidmət alaraq tam sağalma ilə evə buraxılıblar. Onlardan 3 nəfəri ambulator, digərləri isə stasionar şəraitdə müalicə olunub.

Baş həkim onu da vurğulayıb ki, mövsümə uyğun olaraq digər rayon xəstəxanalarında olduğu kimi, Şahbuzda da bu il kifayət qədər ilan və əqrəb zəhəri əleyhinə zərdab ehtiyatı yaradılıb. Zərdablar təkcə rayon xəstəxanasına deyil, ilan və əqrəb sancmaları daha çox rast gəlinən böyük kəndlərin həkim ambulatoriyalarına da paylanılıb.

Xəstəxananın həkimi Elvin Gülməlıyev ilançalma, əqrəbsancma zamanı zəruri olan ilkin tibbi yardımın təşkili barədə məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində yeniyetmə və gənclər (2001-2003 və 2004-2005-ci illər) arasında üzgüçülük üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.*

## Üzgüçülük üzrə birinciliyin qalibləri müəyyənləşib

Kompleksin direktoru Ramin Talıbov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək bildiriblər ki, bu yarışı keçirməkdə məqsəd yay tətilində məktəblilərin asudə vaxtlarını səmərəli keçirmələrini təşkil etmək və onlara sağlam həyat tərzi aşılamaqdan ibarətdir.



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkil etdiyi birincilikdə 2 yaş qrupunda 30-a yaxın idmançı mübarizə aparıb.

Üzgüçülüyün sərbəst üsulu üzrə keçirilən yarışın yekununa əsasən 2001-2003-cü illər təvəllüdlü idmançılar arasında 50 metr məsafədə Həsən Abbasov, 2004-2005-ci illər təvəllüdlü idmançılar arasında 25 metr məsafədə isə Əkbər Məmmədov bütün rəqiblərini qabaqlayaraq birinci yerlərə layiq görülüblər.

Sonda hər iki yaş qrupunda yer tutan və fərqlənən idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 626